**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№350/2** **24 noyabr 2022-ci il**

**“Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsinə dair proqram barədə”**

Auditorlar Palatası sədrinin 2022-ci il 20 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Auditorlar Palatasının üzvləri arasında peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planı"nın 4-cü “Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi mexanizminin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması” bəndinə uyğun olaraq Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən “Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsinə dair” hazırlanan proqramın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsinə dair” proqram Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, 2023-cü il 01 yanvar tarixindən təsdiq olunmuş proqrama müvafiq olaraq yeni fəaliyyətə başlamış auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi təmin edilsin.
3. Auditorlar Palatası Şurasının 2019-cu il 22 fevral tarixli 308/7 nömrəli qərarı ilə təsdiq edilmiş “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair proqram” qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın və proqramın mətnlərinin Auditorlar Palatasının internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**